BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2013

**UOT: 342**

# SOSİAL RİFAHI TƏMİN EDƏN MÜXTƏLİF RİFAH VASİTƏLƏRİ

**A.N.İBRAHİMOVA**
***Bakı Dövlət Universiteti***
***aytakin_ibrahimli@mail.ru***

*Bu məqalədə 20-ci yüz illiyin son rübündə ortaya çıxan qloballaşma və liberallaşma axınları nəticəsində gündəmə gələn yeni bir anlayışın, sosial rifah və sosial rifahı təmin edən təşkilatların üzərində durulmaqdadır. Mənimsənilən yeni anlayış və izlənməyə başlanan yeni siyasətlərin nəticəsində yarım yüz ildən çox bir vaxtdır ki, sosial siyasət sahəsində tək başına olan dövlətin xüsusiyyətini dəyişməyə başladığı, sosial rifahı təmin etmədə qarışıq bir quruluşun ortaya çıxdığı müşahidə edilməkdədir.*

**Açar sözlər**: qloballaşma, sosial rifah, sosial rifahı təmin edən müxtəlif rifah vasitələri

Müxtəlif rifah vasitələri (welfare mix) olaraq ifadə edilən bu vəziyyət, aşağıda tək-tək nəzərdən keçiriləcəkdir, bu da, öz növbəsində, sivil sektor, könüllü sektor və özəl sektorun dövlət sektoruna sosial rifahı təmin etməkdə köməkçi olmağa başlamasını ifadə etməkdədir. Hər nə qədər, bunların rifahı təmin etməkdə göstərdikləri töhfələr kiçik ölçüdə olsa da, artıq sosial rifah sahəsindəki bir plüralizm dönəmini başlatmaqdadır.

Əslində keçmişə baxdıqda dövlətin xaricindəki qurumlarının sosial xüsusiyyətlərindəki vəzifələrinin yeni bir tətbiqinin olmadığı, bu günə qədər isə sosial rifah sahəsində "tək təmin edən" rifah dövlətində, buna bənzər qurumların işbaşında olduğu bilinməkdədir. Nə var ki, cəmiyyətin inkişaf etməyə başlaması və problemlərin qarmaqarışıq bir hal alması ilə birlikdə bu ənənəvi rifah qurumlarının artıq problemlərin öhdəsindən gələ bilməyəcək bir hala gəldiyi və bu səbəblə də bu cür vəzifələri ən böyük ictimai təşkilat olan dövlətlərin öz üzərlərinə götürdükləri görülməkdədir (2).

Dövlətlər yarım yüz ildən artıq bir vaxtdır ki, sosial sahədə tək aparıcı qüvvə rolunda çıxış edirlər. Bu dövrdə (1945-ci ildən sonra) rifah dövləti olaraq adlandırılan və müasir cəmiyyətin ən inkişaf etmiş rəhbərlik forması olan böyük təşkilati quruluş, sosial baxımdan insana yaraşan yaşam tərzinə ən uyğun və dünyanın bu günə qədər görmədiyi ən yaxşı ictimai təşkilatlanmanı gerçəkləşdirmişdir. Digər yandan,yeni bir yüz ilə qədəm qoyduqda, yeni bir dəyişiklik yaranmış, uzun bir vaxt tək başına sosial rifah ehtiyaclarını

qarşılamağa çalışan dövlətlərin struktur və funksional olaraq bürokratik mərkəziyyətçi və avtoritar olma meylliyi, sosial rifah xidmətləri də daxil olmaqla, hər cür xidmətin reallaşdırılması və tətbiq olunmasında müvəffəqiyyətsiz görülməsi səbəbilə, xidmətlərin təqdim olunmasında yeni arayışlar ortayaçıxmış, bütün bunlar müxtəlif rifah növlərinin yaranmasında təməl faktor olmuşdur.

Aşağıda, ilk öncə son zamanlarda üzərində durulan rifah anlayışı ilə bağlı bəzi məlumatlara yer veriləcəkdir, ardından sosial rifahı təmin edən hansı qurumların olduğunun və bu funksiyaların necə gerçəkləşdirilməsinə toxunulacaqdır (1).

**I. Sosial rifahın təmin olunmasında yeni bir üsul:müxtəlif rifah vasitələri**

Rifah, ədəbiyyatlarda "rifah plüralizmi", "rifah üçbucağı" və başqa terminlərlə, sosial rifah xidmətlərinin təqdim olunmasında getdikcə artan bir paya sahib olan müxtəlif rifah təminatçıları kimi ifadə edilməyə çalışılmışdır. Bu vəziyyəti ifadə etmək üzrə ən çox istifadə olunan ifadə isə "müxtəlif rifah vasitələri" dir

Bir tərəfdən yeni dövrə damğasını vuran, iqtisadi və siyasi ideologiyanın sosial xərclər və sosial xidmətlər də daxil olmaq üzrə dövlətin kiçidilməsini tələb etməsi, o biri yandan dövlətin sosial məzmunlu xidmətlərin gerçəkləşdirilməsi və təqdim olunmasında müvəffəqiyyətsiz görülməsi və başqa səbəblər nəticəsində bu xidmətlərin təqdim olunmasında yeni axtarışların ortaya çıxdığı görülməkdədir (7).

Əslində rifah dövlətinin təqdim etdiyi bəzi sosial rifah xidməti bənzər tətbiqlərin insanlıq tarixi qədər qədim olduğu rifah dövlətlərinin meydana gəlməsindən əvvəl bu xidmətlərin bir şəkildə sivil cəmiyyət, dini qurumlar, bazarlar, könüllü quruluşlar və rifahdan əvvəl dövlət kimi qurumlar tərəfindən təqdim olunduğu görülməkdədir. İnsanlara sosial qoruma təmin edən bu ənənəvi qurumlar nisbətən daha gənc olan rifah dövlətlərindən çox daha yaşlıdır. İzləri tarixin dərinliklərinə qədər getməkdədir.

Mədəniyyətin başlanğıcından bəri var olan bu qurumlar cəmiyyətin xəstələr, fiziki qüsuru olanlar, yoxsullar kimi özü-özünə baxa bilməyan şəxslərinə xidmət göstərmək, üzrə müxtəlif axtarışlar içərisində olmuşdur (bu axtarışlar günümüzdə də davam etməkdədir).

Həqiqətən, dövlətin hələ sosial vəzifələri boynuna götürmədiyi keçmiş vaxtlarda, dövlət tərəfindən yaradılan təşkilati bir qoruma sistemi əsas məsələ olmadığından, ortaya çıxan ailəvi, sosial və təbii böhranlar qarşısında, fərdlərin ehtiyac duyduğu qoruma bu sosial həmrəylik təşkilatları tərəfindən təmin olunmuşdur. Bu cəmiyyətlərdəki ailə və qohumluq əlaqələri, məhəllə-kənd-camaat əlaqələri, iqtisadi məqsədli qurumların təmin etdiyi həmrəylik, təriqət və dini məzmuna sahib qurumların təmin etdiyi həmrəylik və s. sosial qorumanın təməlini təşkil etmişdir. Digər yandan bu qurumların yanında, daha yaxın zamanlarda da şəhərlərin böyüməyə başlaması ilə birlikdə şəhər

idarəçiliyi ilə yoxsullara istiqamətli təşkilati bir qoruma sisteminin yaradılmağa çalışdığı da müşahidə edilməkdədir.(Ancaq bu səylərin təməlində fərqli qayğılar olduğu bilinməkdədir)

Bu təsbitlərin hamısı demək olar ki, bütün cəmiyyətlərdə oxşardır. Ölkəmiz baxımından baxıldıqda da qan qohumluğu və qohumluq əlaqələrindən, dini quruluşun nəzərdə tutduğu sosial dövlət düşüncəsindən, kənd və şəhərlərdə də dövlət və idarəçilərin əli ilə şəkillənmiş təşkilatlardan təşkil olunan rifah sistemininolduğu görülməkdədir.

Zaman içində xüsusi ilə də son yüzillikdə sosial problemlərin həllində dövlətin (mərkəzi və yerli idarəetmə orqanlarının) çox vacib vəzifələri üstlənməyə başladığı müşahidə edilməkdədir. Sənaye inqilabı ilə birlikdə ictimai quruluşun və istehsal əlaqələrinin sürətlə dəyişilməyə başladığı, şəhərlərin artması, yeni ictimai cəmiyyətlərin ortaya çıxması kimi səbəblərlə, bu dövrdə yaşamaq və çalışmaq şərtləri gedərək pisləşmiş, səfalət artmış, ənənəvi təşkilatlar da sənaye dövrünün yaratdığı bu yeni problemlərin öhdəsindən gələ bilməmiş bu səbəblərlə dövlətlər bu vəziyyətə laqeyd qalmamış və sosial yaşama müdaxilə etməyə başlamışdır.

Bu dövrdə, köhnə dövrün sosial qurumları olan ailə, xeyriyyə cəmiyyətləri və digər xeyriyyə təşkilatları yetərsiz qalmış, bunların yerinə bu cür ehtiyacları qarşılayacaq yeni qurumlara ehtiyac duyulmuşdu,çünki ənənəvi sosial yardım qurumları, şəhərlərdə yığılan işçilərin iş qəzaları və sağlıq baxımları kimi ehtiyaclarına cavab verə bilməmiş, yoxsul və işsiz təbəqələrin sosial yardım tələblərinə yetişə bilməmişdir.

Bu müdaxilələrin gedərək daha da sıxlaşması ilə birlikdə sosial siyasətin təminatçısı olaraq, dövlət 20-ci yüz il boyunca sosial rifah xidmətlərini ən təsirli və ən səmərəli şəkildə bütün cəmiyyəti əhatə edə biləcək ölçüdə təqdim edə biləcək yeganə qurum halına gəlmişdir. Bununla birlikdə yuxarıda sıralanan digər sosial siyasət təminatçısı olan qurumların da, bəlli bir nisbətdə sosial vəzifələrini yerinə yetirməyə davam etdikləri də bilinməkdədir.

Ancaq ki, 1970-ci illərin sonlarından etibarən yeni bir dövrün başladığı və dövlətin sosial rifah xidmətlərinin təqdim olunmasına olan töhvəsinin zəifləməsi səbəbilə gözlərin yenə bu qurumlara çevrildiyi müşahidə edilməkdədir, çünki qloballaşmanın və onun ideologiyası olan neo-liberalizmin yayılmağa başlaması ilə birlikdə dövlətin funksiyaları və dolayısı ilə sosial öhdəlikləri ilə bağlı bəzi təməl mübahisələr başlamış, bir çox ölkədə onsuz da yetərsiz olan dövlətin sosial ölçüsü, son illərdə dövlətin kiçidilməsi mübahisələri ilə daha da mübahisəli olmuş, yeni yanaşmaların inkişaf etdirilməsi gündəmə gəlmişdir.

Bu qısa sosial rifah taixçəsindən sonra aşağıda ilk öncə müxtəlif rifah növləri ilə nə ifadə edilməsi istənildiyi üzərində durulacaqdır. Müxtəlif rifah növləri ilə dövlət dövriyyədən çıxarılmadanxidmətlərin təqdim olunmasında nisbi belə olsa digər sosial siyasət təminedici qurumlardan yararlanmaq əsas məqsəd olaraq göstərilmiş, dövlətin özünün xidmət növü yaratması yerinə, bu xidmətlərin ictimai sektor, özəl sektor, sivil sektor və könüllü sektor tərəfindən

ortaq bir şəkildə gerçəkləşdirilməsi, dövlətin isə daha da bu seqmentlərə maliyyə dəstəyi təmin etməsi və xidmətlərin tənzimlənməsində məsul olması istənilmişdir. Beləcə cəmiyyət, ayrı-ayrı rifah növləri olaraq ifadə edilən bu rifah təminedici qurumların hər birinin yaratdığı rifahın cəmindən yaranmışdır. Bu tərzdə sosial rifah xidmətlərini təmin edərkən cəmiyyətdəki digər potensial güclərdən yararlanmaq da mümkün olacaqdır. Onsuz da bu gün inkişaf etmiş müasir rifah dövlətlərinə baxdıqda da, rifah çoxluğunun bu şəkildə işlədiyi görülməkdədir. Nə var ki, bu qurumlardan da çoxlu fayda təmin edilməsi istənilirsə, dövlətin bunları daha da çox dəstəkləməsi və daha qüvvətli şəkildə hərəkətə gətirməsi vacib sayılır.Bütün bunlarla birlikdə sosial siyasətlə maraqlanan bəzi yazarlara görə hər hansı bir sosial problem ilə qarşı-qarşıya gəlindiyində, həll nöqtəsində ən birinci öhdəlik, fərdin özünə aiddir. Fərd özü təkbaşına bu problemlərin öhtəsindən gələ bilməzsə ikinci olaraq dövriyəyə ailəsi, qonşusu və dostları daxil olmalıdır. Bunlar da problemin öhdəsindən gələ bilmədikdə dini qurumlar və xeyirsevər qurumlar da problemlərin həll olunmasında öhdəlik almalıdır. Bütün bu yolların yetərsiz qaldığı nöqtədə isə dövlətin öhdəliyi başlamalıdır. Yəni dövlət, sosial rifahı təmin etməkdə son çarə olaraq başvurulacaq bir qurum olaraq qalmalıdır. Bu mübahisənin digər tərəfində olanlara görə isə dövlət sosial xidmətin təqdim olunmasında ən təməl qurumdur. Rifah dövləti, dövlət rifahı ilə eyni mənaya gəlməkdədir. Bunun alternativi olaraq, yeni rifah təqdim edəcək alternativ qurum olaraq “bazarın” və digər qurumların göstərilməsi yanlış bir düşüncə tərzidir. Digər yandan burada bildirilməsi vacib olan digər bir amil isə sosial rifahı təmin edənlərin son dövrlərdə yaşanan inkişafların rifah rejimlərinin siniflərə bölünməsində əks olunmasıdır. Əvvəlki vaxtlarda edilən bütün təsnifatlarda rifah dövlətləri bənzər xüsusiyyətlərə görə bəlli kateqoriyalar altında təsnifləndirilmişdir. 1990-cı ildə Gosta Esping Andersin etdiyi yeni bir təsnifləndirmə çalışması ilə birlikdə, dövlətlər müxtəlif rifah növlərinə görə də kateqoriyalara bölünməyə başlanmışdır. Esping-Anderesin təsnifləndirməsində xidmətlərin kimlər tərəfindən təqdim olunduğunun (dövlət-bazar-ailə) çox böyük önəm daşıdığı bildirilmişdir. Bu zamanbelə bir sual yaranır ki, sosial rifahın təməli dövlətdirmi, ailədirmi, bazardırmı, yoxsa könüllü qurumdurmu? (3; 4).

Esping-Andersenə görə üç təməl “rifah rejimi”ndən birisi olan Skandinaviya modelində dövlət digərlərindən daha çox önəmə sahibdir. Qitə Avropası, Cənubi Avropa modelində isə ailə və könüllü quruluşlar (məs: katolik kilsə) digərlərinə nisbətdə daha öndə gəlməkdədir. Halbuki liberal rifah rejimlərində başda bazar iqtisadiyyatı olmaqla, sivil və könüllü sektora daha çox önəm verilməkdədir.

**II. Sosial rifahı təmin edən qurumlar**

Bu bölmədə sosial rifahın təmin olunmasında rol oynayan qurumlar incələnəcək və bunların töhvə və iştirakı geniş bir şəkildə qiymətləndiriləcəkdir.

**A. Sivil sektor**.

Yuxarıda da qeyd olunduğu kimi sosial rifah xidmətlərinin təmin edilməyə başlanması insanlıq tarixi ilə qarışdırıldığında nisbilik çox yeni bir vəziyyətdir. Dövlətlərin sosial-iqtisadi yaşama müdaxilə etməyə başlamaları dövlətlərin yaranması və sənayeləşmənin yaranması ilə başlamışdır. Dövlət yarandığı gündən yaxın zamanlara qədər təkcə xarici müdaxilələrə qarşı müdafiənideyil eyni zamanda daxili hüququ və nizamı təmin etmə öhdəliyini də götürmüşdür. Dolayısı ilə bu dövrdə sosial problem ilə qarşı-qarşıya gələn insanların yardımına, ailələri başda olmaqla qohumları və dostları da gəlmişdir.

Sosial təşkilatlanmanın ən qədim nümunəvi misalını təşkil edən ailə, qohumluq və dostluq kimi qurumlar bir bütün olaraq sivil sektor olaraq ifadə edilməkdədir. Özəlliklə ailə, həmrəyliyin ən güclü olduğu ictimai birlikdir. Ailələr günümüzdə ənənəvi sosial rifah xidmətlərinin yerinə yetirilməsi baxımından funksiyalarını hələ də itirməmişdir. Həqiqətən də, ailələr bu gün də rast gəlinən problemlərə ilk müdaxilə edən qurumdur. Əgər mövcud problem ailə, dostluq və qohumluq əlaqələri ilə öz həllini tapa bilmirsə, o zaman sosial rifah qurumları məsələnin həlli üçün işə başlamalıdır. Ən inkişaf etmiş ölkələrdə belə ailələrin qismən bu rolunu davam etdirdiyi, özəlliklə də Afrika və Asiyanın bir çox inkişaf etməmiş ölkələrində ailənin ənənəvi rifahını təmin etmə xüsusiyyəti cəmiyyətdə, sosial rifah qurumu olaraq öz varlığını davam etdirməkdədir (7).

Adət-ənənələr əsasında qurulan bu münasibətlərin daha sıx olduğu cəmiyyətdə ailənin xəstə üzvləri, ana-atasını itirən uşaqları, yaşlı üzvləri, ailənin digər fərdləri tərəfindən qorunmaqdadır və bu bir haqq olaraq görülməkdədir. Ailənin gənc üzvləri və orta yaşlılarından ailənin yaşlı üzvlərinə doğru "ailə içi gəlir transferi" reallaşmaqdadır. Qalmış miras nəticəsində ailənin yaşlı üzvlərindən orta yaş üzvlərinə doğru qalan gəlir və mülkiyyət də **"rifah transferi"** olaraq qəbul edilməkdədir. Sivil sektorun həm dövlətin sosial məzmunlu müdaxilələrdə olmadığı dövrlərdə, həm də daha yaxın zamanlarda dövlətlə birlikdə (az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə) sosial rifahı təmin etmə öhdəliyini davam etdirməsi gözlənilməkdədir. Belə ki, bu ölkələrdə reallaşan sosial xərclərin miqdarına baxıldıqda, ənənəvi ailələrin möhtac vəziyyətə düşən ailə fərdlərinin baxımlarını öhdəsinə götürərək və onlara dəstək olaraq xərcləmə səviyəsinə pozitiv istiqamətdə təsir edən daha aşağı ictimai sosial xərclərə yol açdığı görülməkdədir.

Halbuki ailə qurumunun daha zəif olduğu inkişaf etmiş ölkələrdə reallaşan sosial xərclərə baxıldıqda bunların vacib bir bölməsinin sosial rifah xidmətlərinə ehtiyac duyan fərdlərinə ayırdığı, bu fərdlərə sosial rifah qurumlarında ya da özü yaşadığı məkanlarda təqdim olunan xidmətlərin maliyyə dəyərinin vacib miqdarlara çatdığı müşahidə edilməkdədir. Dolayısı ilə hər nə qədər ənənəvi cəmiyyətlərin ya da bu cəmiyyətdəki ailə qurumunun inkişaf etmiş rifah dövlətlərinə nəzərən rifah xidməti təmin etmə potensialı çox sərhədli bir səviyyədə də olsa da sosial xidmətlərin büdcəsindən çox sərhədli bir qaynaq ayıra bilən ölkələrdə ailə qurumunun sahib olduğu belə bir sosial funksiya, ictimai dinclik və rifah sarıdan vacibdir. Ölkəmizdə də hər nə qədər geniş ailə

növündən kiçik ailəyə doğru bir keçid yaşansa da, ailələrin hələ yaşlı ana-ata, bacı-qardaş və yaxın qohumları qorumağa və dəstəkləməyə davam etdikləri, onsuz da dövlətin bu məqsəd üçün ayırdığı maliyyə mənbəyinin qərb ölkələrilə nisbətdə zəif olduğu görülməkdədir. Dolayısı ilə sosial xidmət nöqtəsində azəri ailəsi çox xidmət növü yaradan bir qurumdur.

**B. Dini qurumlar**.

Ən qədim dinlərdən bəri xeyirsevərlik, yaxşılıq, yoxsullara yardım, sosial ədalətin təmin olunması kimi xüsusiyyətlər təşviq edilmişdir. Bütün dinlər qarşılıqlı yardım və yoxsulların dəstəklənməsini nəsihət etmişdir. Dini qurumun sosial xidmətlərin təqdim olunmasında bəzən məcburi, bəzən isə könüllü hala gətirərək bu sahədə önəmli bir funksiyaya sahib olduğu hər kəs tərəfindən qəbul edilməkdədir.Böyük dinlər hədiyyə etməyi və xeyirsevərliyi dini bir öhdəlik halına gətirmişdir. Dünyadakı bir çox insanların bağlı olduğu üç öyük din İslam, Xristianlıq və Yəhudilik cəmiyyətdəki fərdlər üçün kollektiv öhdəlik hissi daşımasını zəruri hala gətirməkdədir. Dini qurumlar, dövlətin bu sahədə təsirli bir yol üstlənməyə başladığı zamana qədər, tarixi dövr ərzində bir çox cəmiyyətdə ailədən sonra sosial rifah xidməti təqdim edən ikinci qurum olmuşdur. Din həm insanlara yardımlaşma, həmrəylik və mərhəmət duyğusu aşılamağa çalışmış, həm də əmr və tövsiyyələrlə ictimai idarəçilik qabiliyyətinin işləməsini də təsiri altına alaraq, dövlətin sosial siyasət izləməsinə zəmin hazırlamışdır. Ümumi dinlərin bu rolu hələ davam etməkdədir. Hər üç böyük din də gətirdiyi qayda və qanunlarla minlərcə ildən bəri sosial dayanışmanın davam etdirilməsində rol oynamağa davam etməkdədir. İslam dinin mənimsənildiyi ölkələrdə, sosial yardımlaşma və həmrəylik olduqca önəm daşıyır. İslam dini sadəcə fitrə, zəkat, qarşılıqsız yardımlaşma, dini yardımlaşma qurumları ilə qeyri-bərabər cəmiyyət quruluşunu daha ədalətli bir cəmiyyət quruluşuna dönüşdürməyə çalışmaqdadır. Bu məqsədə yönəlik bir çox ayə və hədislər mövcuddur. Qurani-Kərimdə yoxsulluğun aradan qaldırılma məqsədinə yönəlik nəğd gəlir transferlərilə bağlı ən azı 88 ayə mövcuddur. İslamın beş təməl şərtlərindən biri də, zəkat vermək, yəni ehtiyac sahibi yoxsullara yardımdan ibarətdir. Orta əsrlər boyunca İslam dünyasında dini motivlərlə ortaya çıxan daha çox yoxsullara yönəlik olan ictimai yardımlar geniş sahədə tətbiq olunmağa başlamışdır. Xristianlıqda isə sadəcə sosial yardım Kilsə tərəfindən bir qurtuluş vasitəsi olaraq dəyərləndirilmişdir. Sədəqələrin idarəsi də Kilsə tərəfindən edilmiş, 15-ci yüzilliyə qədər Kilsənin hazırladığı qurumlarda, yoxsulların dəstəklənməsi zənginlər üçün bir borc kimi ifadə edilmişdir. Kilsə öz büdcəsi ilə, yoxsul insanlara yardım etmişdir.

Xristianların müqəddəs kitabı “İncildə insanların 1-ciməhsulu aldıqdan sonra 2-ci dəfəməhsul almaq məqsədilə tarlalarına, zeytunluğa, üzüm bağlarına getməkdən çəkinməli və bu ikinci məhsulu əcnəbi, dul və yetimlərə aid olduğu bildirilməklə, bu əmirlərə tabe olanların Tanrı tərəfindən xeyir-dua sahibi olacaqları ifadə edilməkdədir.Yəhudi dini 14 və 12-ci yüzillər arasında qarşılıqlı yaxşılıq fəaliyyətlərini könüllülükdən çıxarıb dini bir öhdəlik kimi qəbul

etmişdir. Musa peyğəmbər yoxsullara əziyyəti və təzyiqi qadağan etmiş, sosial ədalətdən söz etmişdir.

Digər yandan ölkəmizdə də sosial rifah xidmətlərinin ortaya çıxışında dini-əxlaqi və fəlsəfi təməllərin önəmli və faktor olduğu bildirilməkdədir. Türk toplumunda toplumsal dayanışmaya çox önəm verildiyi, zəkat, sədəqə, yetimlərə və dullara yardım kimi qurumlarla ictimai həmrəylik bir cür ibadət halına gətirildiyi görülməkdədir. Vəqf təşkilatı kimi cəmiyyətimizə xas sivil cəmiyyət quruluşlarının təməlində də bu qurumların çox böyük bir rolu olmuşdur.

Ancaq dini dəyərlər insanlar üzərində nə qədər təsirli olsa da, ətraflı və təsirli sosial rifah xidmətlərinin ortaya çıxışı, dövlətin inkişaf dövrünü paralel bir şəkildə gerçəkləşdirmişdir. Dövlətin keçirdiyi təkamülün bir nəticəsi olaraq ortaya çıxan müasir dövlətlər, özəlliklə İkinci Dünya müharibəsinin sonlarından etibarən sosial sahə dövlət tərəfindən təşkil edilmiş, daha çox insanların və xeyirsevər quruluşların fərdi səylərinə buraxıldığı dövrdən çox fərqli olaraq, sosial siyasətlərin demək olar ki, hamısını boynuna götürmüşdür.

**C. Könüllü sektor**.

Könüllü sektor da sivil sektor kimi keçmişdə, həm də günümüzdə olduqca önəmli funksiyası olan sosial rifah qurumlarındandır. Sənaye inqilabına qədər uzun zaman boyunca, inkişaf etmiş ölkələrdə və digər ölkələrdə sosial siyasət tətbiqlərinə könüllülük və qarşılıqlı yardım əsasına dayanan xeyirsevər təşkilatlar tərəfindən təmin olunduğu görülməkdədir. Bu vəziyyət çox uzun müddət davam etmiş, ancaq sənaye inqilabı ortaya çıxıb da sosial-iqtisadi quruluş böyük sahədə dəyişməyə başlayınca, sosial siyasəti təmin edən qurumların da dəyişdiyi sənayeləşmə ilə birlikdə sosial rifah xidmətlərinin təmin olunmasında dövlətin ön plana keçdiyi, uzun bir dövr ərzində, dövlətin sosial rifah təmin etmənin funksiyasını tək başına öhdəsinə götürdüyü görünməkdədir, çünki bu dövrdə sosial yardıma ehtiyac duyan təbəqələr genişləndikcə, könüllü sektor öz resursları ilə tək başına bu problemin öhdəsindən gələ bilməmiş, dövlətin sosial yaşama müdaxiləsi çətin bir hala gəlmişdir (2; 3).

Ancaq 1970-ci illərdən etibarən ortaya çıxan neo-liberal axın dövləti səmərəsizlikdə günahlandıraraq, digər bir çox sahə ilə birlikdə sosial siyasətdən də çəkinməyə məcbur etmiş və bunun nəticəsində könüllü quruluşların xüsusiyyəti olaraq yenidən inkişaf etməyə başlamışdır.

Könüllü quruluşların əhəmiyyət qazanmasında, hər şeyi dəyişdirən qloballaşmanın rifah dövlətlərinin kiçildilməsi yönümündə təzyiqləri vacibdir. Bu təzyiqlərin nəticəsi olaraq, bazarlar və könüllü quruluşlar sosial rifah xidmətlərinin təqdim olunmasında əhəmiyyət daşımağa başlamışdır. Könüllü quruluşlar, 1980-cı illərdən etibarən özəlliklə inkişaf etmiş qərb ölkələrində sosial siyasətin təmin olunmasında yeni bir istiqamət olaraq təkrar maraq görməyə başlamışdır. Mərkəzi idarəçilik, yerli idarəçilik və könüllü quruluşlar arasında xidmətin bölüşdürülməsi ilə ortaya çıxmış, könüllü quruluşlarla irəli səviyyədə işbirliyi etdiyi müşahidə edilmişdir. Dövlət bəzi xidmətləri yerinə yetirmək əvəzinə bu qurumlardan almağa üstünlük vermişdir. Özəlliklə 1970-ci

illərdən sonra canlanmağa başlayan bu dövr bir çox ölkələrdə qarışıq rifah xidmətlərinin vacib bir qismini təşkil etməkdədir.

Başda ABŞ, İngiltərə olmaqla bir çox ölkələrdə edilən qanunvericilik və idarəçilik sahəsində dəyişikliklərlə, dövlətin sosial rifah xidmətlərindəki maliyyə və yoxlama öhdəliyi davam edərkən, xidmətlərin istehsal və istehlak öhdəliyi könüllü quruluşlara təhvil verilmişdir.

Nə var ki, dövlətin sosial öhdəliklərinin hamısı ilə digər sosial rifah təmiedici qurumlar (özəl sektor, sivil sektor, könüllü sektor) tərəfindən yerinə yetirilməsi də bəzi yazarlar tərəfindən mümkün görülməkdədir. Həqiqətən də xəstətlik, yaşlılıq, işsizlik kimi böyük həcimli risqlərə dövlətin mübarizə aparmasının qeyri-mümkün olduğu görülməkdədir.

**D. Dövlət sektoru (mərkəzi və yerli idarəetmə).**

Sosial rifah xidmətlərinin təmin olunmasında ən vacib qurum dövlətdir. Bir çox qədim mədəniyyətdə dövlətlər, cəmiyyət içində sosial rifah üçün təməl olmuşdur. Ancaq ilk dövrlərdə dövlətlərin günümüzdəkilərə bənzər bir şəkildə sosial düşüncələr güddüyünü iddia etmək çətindir, çünki bu dövrdə dövlətin sosial xüsusiyyəti inkişaf etməmişdir. Dövlət, ancaq 200 ildən bəridir ənənəvi qurumlardan bu vəzifəni təhvil almağa başlamış, II Dünya müharibəsindən sonra isə sosial rifah sahəsinin demək olar ki, tək xidmət təminedicisi olmuşdur. Bunun ən əsas səbəbi sənayeləşmənin ənənəvi qurumları yox etməsi, ya da vacib dərəcədə dəyişdirməsidir. Dolayısı ilə dövlət, bu ənənəvi qurumların rifah funksiyalarını öz öhdəsinə götürmək və çalışan nüfuzu, sənayeləşməni çətinliklərdən qorumaq üçün müdaxilə etmək məcburiyyətində qalmışdır. Həqiqətən də sənaye inqilabı ilə birlikdə bir yandan sosial siyasətin əhatəsi, bir yandan da sosial siyasətlərin təmin olunmasında vəzifə alan qurumlar fərqlənməyə, sivil toplum yerinə, sosial rifah xidmətlərinin təqdim olunmasında dövlət vəzifə almağa başlamışdır. Sənaye inqilabı iqtisadi və sosial sahədə böyük bir dəyişiklik yaratmış, yeni sosial siniflər ortaya çıxmış, istehsal və iş münasibətləri yenidən formalaşmışdır.Yeni dövrün ortaya çıxartdığı səfalət, sivil sektorun və könüllü quruluşların öhdəsindən gələ bilməyəcəyi bir böyüklüyə çatdığından, dövlətin sosial siyasət tədbirlərinin alınmasında digər faktorların önünə keçməsinə yol açmışdır. Sənaye inqilabı həm ənənəvi sosial yardım qurumlarını zəiflətmiş və ya tamamən ortadan qaldırmış, həm də özü ilə birlikdə yeni təhlükələr gətirərək insanların sosial müdafiə ehtiyacını artırmışdır. Sənaye inqilabından sonra ortaya çıxan işsizlik və aşağı əmək haqqı kimi mənfi şərtlər səbəbindən sosial müdafiə ehtiyaclarının fərdi imkanlarla qarşılanması da imkansız hala gəlmişdir (4).

Bu səbəblərlə dövlət sənayeləşmənin yaratdığı kütləvi səfalətin sonunda insani, dini, hərbi, iqtisadi, mədəni və işçi sinfinin təzyiqləri ilə başda iş əlaqələri olmaq üzrə sosial sahədə tədbirlər almağa yönəlmiş, iş saatlarını tənzimləmiş, cəmiyyətin sağlamlığını təhdid edən problemləri ortadan qaldırmış, mənzil keyfiyyətini inkişaf etdirmiş və başqaları üçün qanun tənzimləmələri etmişdir.

Özəlliklə sosial sığorta qurumlarının dövrəyə girməsi ilə dövlətin sosial müdafiə sahəsində doğrudan öhdəlik götürdüyü və zamanla müxtəlif sosial rifah xidmətləri təqdim etməyə başladığı görülmüşdür. Daha sonralar isə mərkəzi, ya da yerli hökümət büdcələrindən maliyyələşən dövlətin sosial müdafiə xərclərinin və ya dövlət yardımları və dövlət xidmətlərinin inkişaf etdiyi görülmüşdür. II Dünya müharibəsindən sonra, liberal iqtisadi siyasətlərinin uğursuz olması və rifah dövlətlərinin ortaya çıxdığı və rifah illəri (qızıl dövr) olaraq tanınan bu dövrdə, sosial rifah tədbirlərinin görülməsində (təhsil, səhiyyə, mənzil, sosial müdafiə və fərdi sosial xidmətlərinin təmin olunmasında) dövlətin birinci faktor halına gəldiyi müşahidə edilmişdir. Yenə dövlət idarəetməsinin bir parçası olan yerli idarəetmənin də artan sosial xidmətlərinin yerli sahədə əsas təmin edici vasitə olduğu görülməkdədir.

Dolayısı ilə 1970-ci illərdə ortaya çıxan böhrana qədər dövlətin funksiya və öhdəliklərinin sürətlə genişləndiyi, bu tarixdən günümüzə qədər isə dövlətin iqtisadi və sosial sahədəki mövqeyinin azaldılması səylərinin artdığı, ancaq yenə də dövlətin ən böyük sosial rifah təmin edici vasitə olmağı davam etdirdiyi görülməkdədir. Yeni dövrdəki meyl, həm mərkəzi, həm də yerli idarəçilik üzərindəki sosial öhdəliyin özəl sektor başda olmaq üzrə könüllü quruluşlara və sivil sektor başda olmaqla könüllü quruluşlara və sivil sektora transfer edilməsidir. Bu anlayışa görə, dövlət yalnızca planlama, maliyyə və nəzarət xidməti yaratmalı istehsal və istehlakı digər iştirakçılara buraxmalıdır. Digər tərəfdən mərkəzi dövlət sosial rifah tədbirlərinin çoxunu ölkədəki yerli idarəçiliklə paylaşdığı, yerli idarəçilərin isə mərkəzi idarəedənin lokal sahədə təmsilçisi-partnyoru olduğu görülməkdədir. Ayrıca yerli idarəçilik mərkəzi idarəedəndən asılı olmayaraq özləri tərəfindən müəyyənləşən xidmətlərlə də vacib sosial siyasət funksiyası daşımaqdadır. Ümumilikdə bu idarəedənlərin təqdim etdiyi sosial rifah tədbirlərinin növlərini, əhatəsini və xüsusiyyətini ölkədən-ölkəyə ərz edə bilməkdədir. Misal üçün, İngiltərədə sağlıq xidmətlərinin milli sahədə, İsveçdə isə yerli sahədə təqdim edilməsini göstərmək olar.

İnkişaf etməkdə olan ölkələrin demək olar ki, hamısında olduğu kimi ölkəmizdə də təhsil, səhiyyə, sosial xidmətlər və başqa mövzularda mərkəzi dövlətin rolu böyükdür, bu xidmətlərin hamısı mərkəzi idarəetmənin nəzarəti altında reallaşmaqdadır. Ancaq dövlət sosial xüsusiyyət baxımından araşdırıldığında görülür ki, hələ sosial rifah xidmətlərinin təmin olunmasında istənilən səviyyəyə gələ bilməmişdir. Hər şeydən əvvəl maliyyə mənbəyi çətinliyi, dövlətin sosial xüsusiyyətinin inkişaf edə bilməməsinə və bu xidmətlərin yetərsiz qalmasına yol açmaqdadır. Digər yandan həddən ziyadə mərkəzləşmədə xidmətlərin planlanması, ehtiyac duyanlara bu xidmətlərin köçürülməsini axsatmaqdadır (8).

**E. Özəl sektor.**

**1) Liberal düşüncə və bazar iqtisadiyyatının əhəmiyyəti.**

Son dövrlərdə özəl sektorun sosial rifahın təmin etməsindəki rolunun yaxşıca müəyyənləşməyə başladığı və həm mübahisələrdə, həm də tətbiq

olunmada özəl sektorun rifah xidmətlərinin təmin olunmasında ön plana çıxmağa başladığı görülməkdədir. Bu cərəyanın ortaya çıxmasında faktor olan səbəb 1975-ci illərdən etibarən neo-liberal düşüncənin və siyasətlərin yer üzündə hakim olmasıdır. Liberalizmin təməlində hər cür məhdudiyyətlərdən təmizlənmiş bazar iqtisadiyyatı dayanmaqdadır. Bazar iqtisadiyyatı tərəfdarları, qiymət mexanizminin öz içərisində sosial rifahın da ən yaxşı şəkildə təmin olunan, əslində cəmiyyətin rifahının müsbət sosial rifah təmin olunmasının dövlət müdaxilələri ilə deyil, ən yaxşı şəkildə sərbəst bazar iqtisadiyyatının qanun və qaydalarının tətbiq oluna bilməsindən keçdiyini irəli sürməkdədir. Əks təqdirdə dövlətin bazarda meydana gələn rifah bölüşdürülməsinə müdaxiləsi, bazardakı qayda-qanunun dövlətin əli ilə pozulmasına və ola biləcək düzgün dağılımın daha da pozulmasına səbəb olacaqdır. Bazar mal və xidmətlərin yaranması və cəmiyyətə təqdim olunmasında ən müvəffəqiyyətli iqtisadi quruluşdur. Bazar, liberal düşüncə sahiblərinə görə müstəqillik təməlinə dayanıqlı olub, ümumi rifahı ortaya çıxarır. Bu səbəbdən dövlətin sosial xidmətlər sahəsindəki təsirləri bazara və sivil sektor ilə könüllü sektora ötürülməlidir. Buna yönəlik olaraq son illərdə aktiv cəhdlərin olduğu da nəzərdən qaçmamalıdır.

**2) Özəl sektorun sosial rifahın təmin olunmasındakı rolu.**

Özəl sektor yarım yüz ilə yaxındır ki, sosial rifah xidmətlərinin təmin olunmasında böyük bir rolu öhdəsinə götürmüşdür. Rifah dövlətlərinin “daha yaxşı bir cəmiyyət nizamı”na çatmaq məqsədilə cəmiyyətdə bərabəri olmayan və yoxsulluğu azaltmaq üçün müxtəlif sosial rifah proqramları tətbiq etdiyi, gəlirin yenidən bölüşdürülməsinə müxtəlif yollarla müdaxilə etdiyi bir gerçəkdir. Ancaq özəl sektorun da sosial rifah xidmətlərinin vacib bir sahəsini ortaya çıxartdığı bilinməkdədir. Bəzi yazarlara görə ümumilikdə sosial rifah dövlətin öhdəliyində olan bir fakt olaraq qəbul edilsə də, başda Amerika Birləşmiş Ştatları olmaqla bəzi ölkələrdəisə sosial rifah özəl sektorun fəaliyyətlərinin nəticəsi olaraq böyüdüldüyü tərbiyədən çıxarılmamalıdır. Dövlət öhdəliyi çox könülsüz sonradan öhdəsinə götürmüşdür. ABŞ-da cəmiyyətin sosial rifah xərclərinin böyük bir qismini özəl sektor reallaşdırmaqdadır. Ehtimallara görə özəl sosial rifah sektoru tərəfindən edilən xərclər özəl və ictimaiyyət tərəfindən edilən bütün sosial rifah xərclərinin 40%-ni təşkil etməkdədir. Xərclərin böyük bir qismi sağlıq, xüsusi təqaüd planları, fiziki qüsurlara görə yardımlar, ölüm sığortaları və başqalarını ehtiva etməkdədir. Bu cür peşə faydalarının mükafatları işgötürənlər tərəfindən, bəzən də qismən işçilər tərəfindən ödənilməkdədir. Dolayısı ilə yuxarıdakı misaldan da göründüyü kimi, sosial xərclər sadəcə dövlət yardımları ilə sərhədli deyildir, bəzi ölkələrdə özəl tənzimləmələrdən qaynaqlanan faydalar getdikcə artmaqdadır. Bəzi xüsusi ictimai faydalar dövlət sosial faydalarına nisbətdə daha açıq olduğundan, bəzən bunların müəyyənləşməsində də çətinlik çəkilir (9).

Yuxarıda da qeyd olunduğu kimi liberal yanaşmaya görə sosial rifah xidmətlərinin təmin olunmasında özəl sektor və könüllü sektor başlıca bir rol oynamışdır. Bunların yanında ailə və digər yardım növləri xidmətlərin təqdim

olunmasında yarana biləcək üsullardır. Dövlətin buradakı rolu ən alt səviyyədə olmaq üzrə, ancaq özəl sektorun istehsal etmək istəmədiyi xidmətlər və ya görmək istəmədiyi xidmət sahələrində boynuna vəzifə götürməkdir və ya bazarların təqdim etdiyi xidmətlərə gücü çatmayan yoxsullara yardım etməkdir. Digər yandan vətəndaşların lehinə olan özəl sektor xidmətlərinə dəstək vermək bunlara qida təmin etmək və fəaliyyətlərini təşviq etmək liberal dövlətin üstünlük verdiyi bir üsuldur. Günümüz etibari ilə bəzi ölkələrdə dövlətin uzun zamandır tək başına boynuna götürdüyü fəaliyyətlərinə yaşanan ideoloji dönüşün nəticəsində dövlətin özəl sektora ötürülməyə başlandığı görülməkdədir. Bəzi ölkələrdə dövlət proqramlarının üz-üzə olduğu fəaliyyət proqramları və bu proqramların büdcə üzərindəki yükünün azaldılması düşüncəsi özəl sektorun sosial proqramlara qoşulması düşüncəsinə yönəlmişdir. 1980-cı illərdən etibarən əvvəlcə İngiltərədə başlayan və sonra bütün dünyaya hakim olan özəlləşdirmə siyasəti, sosial rifah sahəsində özəl sektordan istifadə etmə imkanını artırmışdır. Ancaq cəmiyyətin rifahına yönələn sağlıq, təhsil, mənzil, sığınma evləri və s. hər mövzu özəlləşdirmə sahəsində ələ alınmışdır. Ümümiyyətlə bu xidmətlərin maliyyələşdirilməsi və təqdim olunmasının öhdəliyini dövlət seqmenti olmaqla, ancaq xidmətlərin istehsal və bölüşdürülməsi özəl sektor tərəfindən reallaşdırılmaqdadır. Bu yönəlişin bir nəticəsi olaraq son yarım yüz ildən bəridir ki, gedərək artan bir şəkildə problem olmağa davam edən sosial müdafiə böhranını dəf etməkdə, bu sahədəki öhdəliyinin fərdlərə və özəl sektora köçürülməsi və bu şəkildə də siyasi meyllərdən biri olaraq gündəmə gəlməkdədir (10). Bu yeni anlayışa görə dövlət hər kəsə minimum bir sahədə sosial müdafiə (gəlir transferi) təmin edir ki, bunu isə özəl proqramlarla(sığortalarla) həyata keçirir. Dövlət və özəl sektor birlikdə sosial müdafiəni təmin edəcəkdir. Dünya Bankı digər beynəlxalq quruluşlar və bir sıra düşüncə müəyyən etmə mərkəzləri, yaşlılıq sığortası başda olmaqla hardasa bütün sığorta qolları üçün özəl proqramları təşviq etməkdə, bu yöndəki fikir dəyişikliklərinə rəhbərlik etməkdədir. Bəzi müəlliflər bütün bunlara baxmayaraq, xüsusi seqmentin bu sahədəki roluna dair cavablanması vacib olan bir çox sual olduğunu ifadə etməkdədir. Hər nə qədər insan təbiətinin bir parçası olsa da, sosial ədalətin reallaşdırılmasında vacib bir rol oynasa da, özəl sektorun reallaşdıracağı sosial xidmətlər, özü ilə birlikdə bir çox problemlər də gətirməkdədir. Belə ki, birinci olaraq, özəl sektor tərəfindən reallaşdırılacaq sosial xidmətlər böyük bir ehtimalla yetərli ölçüdə bir böyüklüyə çata bilməyəcəkdir. İkinci olaraq, bəzi risqlərin özəl sektor tərəfindən qavranılması mümkün olmayacaqdır. Üçüncü olaraq isə, özəl qurumlar arasındakı koordinasiya azlığı, qurumlar arasında istənilməyən rəqabətə yol aça biləcək və beləcə də rifahın reallaşmasını sərhədləndirəcəkdir. Dolayısı ilə, ictimai malların istehsal edilməsi, bazarın optimal miqdarda gəlirin bölüşdürülməsini təmin edəcəyi gözlənilməkdədir. Bu səbəblə bu cür çətinliklərdə ən yaxşı başa çıxa biləcək qurum dövlət olduğu, rifah dövlətin, sosial ədalətin gərəyi olduğu üzərində dayanılmaqdadır (5). Yenə bənzər bir şəkildə sosial rifah sahəsində

özəl sektorun getdikcə güc qazanması və bazarların sosial rifah xidmətlərini boynuna götürməyə başlamasına yönəlik olaraq aşağıdakı etirazları əsas götürürlər. Bunların başlıcası bu şəkildə ifadə edilə bilər: **Birincisi** əgər insanlar bazarda seçim imkanına sahib deyildirsə, bazar düzgün işləyə bilməyəcəkdir və müvəffəqiyyət qazana bilməyəcəkdir. **İkincisi** bazar bəzi risk növlərini (məs: şikəstlik, xəstəlik və yaşlılıq kimi uzunmüddətli sosial problemlərin aradan qaldırılmasında yetərsiz olaraq qalmaqdadır) və ehtiyac duyan insanları kənara atmaqdadır. **Üçüncüsü** isə bazarlar yalnız fərdi ehtiyaclara qarşılıq verməkdə, sosial ehtiyaclar isə cavabsız qalmaqdadır. Dolayısı ilə, sosial siyasətin və sosial rifahın xidmətlərinin əsil məqsədinin, gəlir əldə etməkdə olan özəl sektora təhvil edilməsi o qədər də xoş qarşılanmamaqdadır. Bu xidmətlər bazar şərtlərində təmin olunmasına başlaması, yetərli gəlir sahibi olmayan yoxsul təbəqələrin, bunlardan yararlana bilməyəcəyindən narahatlıq yaratmaqdadır. Təmin etmə öhdəliyinin davam etməsi istənilməkdədir. Yalnız irəli sürüldüyünə görə xüsusi seqmentlər hər zaman özü öz mənfəəti xaricində ictimai rifahı da təmin edən fəaliyyətlərini uğurlu bir şəkildə aparmaqdadır. Misal üçün: ABŞ-dakı könüllü quruluşlar buna ən gözəl misaldır. Bu quruluşlar, bütövlükdə ictimai olmayan maliyyə mənbələrinə cəmiyyət içində sosial siyasətin təmin olunmasında dövlətlə işbirliyi içində çalışmaqdadır. Bütün bu tətbiq olunanlar onu göstərir ki, bu quruluşlar bir çox dövlət quruluşu ilə müqayisədə daha müvəffəqiyyətlidir. Başlayan mübahisələr və tətbiq olunanlar, sosial rifah xidmətlərinin öhdəliyinin tamamilə özəl sektora təhvil verməsi mövzu obyekti belə olmamış, ancaq özəl sektorun bu sahədəki payının bütün ölkələrdə artmaqda olduğunun sosial rifah xidmətlərinin istehsal və istehlakının rəqabətə əsaslandığını göstərməkdədir (6).

**3) Yeni bir anlayış: "Quasi-market"lər.**

Sosial rifah xidmətlərinin yerinə yetirilməsində son zamanlarda ortaya çıxan və dövlətlə özəl sektor arasındakı işbirliyi yaradan "quasi-market" anlayışı, aşağıda izah edilən, məqsəd güdülməyən quruluşlar ilə bazarı birlikdə əhatə edən bir anlayışdır. Quasi-market, ümumilikdə bir mal, ya da xidmətin nə tam mənada özəl, nə də tam mənada dövlət tərəfindən təmin olunmayan bir bazar quruluşunu ifadə etməkdədir. Bu bazar, mal və xidmətləri təmin etmək, bəzi hissələri isə normal bir bazardan olan və bunları dövlət sektorun müdaxiləsi ilə birləşdirən bir sistemdir. Burada vacib olan maliyyə ilə xidmətin təqdim olunmasının bir-birindən ayrılmasıdır. Dövlət maliyyələşməni təmin etməyi davam edərkən, təqdimatı isə "quasi-market" (bazara bənzər) adlanan bazar birlikləri yerinə yetirməkdədir. 1990- cı illərdən etibarən səhiyyə, təhsil, mənzil və sosial müdafiə kimi sosial rifah xidməti sahələrində quasi-marketlər sürətlə yayıldığı görülməkdədir. Burada mərkəzi nöqtə, bazar və dövlət arasındakı münasibətdir. Dövlətlə bazar arasındakı cizgi, dövlətdən, bazara doğru yerdəyişmədədir. Bu anlayış 1980-cı illərdən sonra İngiltərədə başlayan rifah dövlətini özəlləşdirməsi tətbiqindən sonra daha çox istifadə olunmağa başlandı (7).

Bazar bənzər strukturların inkişafını dövlətin müdaxilə imkanını azaltmadan, dövlət monopoliyasını aradan qaldırmağın bir yolu olaraq görməkdədir.

Quasi-marketlər ənənəvi bazarlardan fərqlidir. Fərqlilik həm ifadə, həm də tələb nöqteyi-nəzərindəndir. İfadə nöqteyi nəzərindən götürdükdə, xidmət təklif edənlər öz mənfəətlərini güdmədikləri kimi, özəl mülkiyyətə aid olmaq vəziyyətində də deyildirlər. Tələb nöqteyi nəzərindən, istehlakçının alim gücü (pul yerinə), bəlli bir xidmətin satın alınması üçün istifadəçiyə, ya da dövlətin mərkəzi bir sahəsinə təsis edilmiş bir büdcə, ya da sənəd formasını ala bilər. Yalnız edilən araşdırma nəticəsində əldə olunan nəticələrə görə, quasi-market bir trenddən çox dövlət-bənzəri bir trendin keçərli olduğu görülməkdədir. Xidmətlərin təqdim olunmasında dövlət ilə bazar arasındakı sədd, dövlətin daha önplanda olduğunu göstərməkdədir. Rifah dövlətinin quruluşunda ciddi bir dəyişiklik görülməmişdir. Misal üçün: İngiltərənin 1978-ci ildəki cəmi rifah xərclərinin cəmi 1996-cı ildə də dəyişməmişdir (11).

**4) İş yerləri və məşğulluqdan qaynaqlanan sosial yardımlar.**

İqtisadiyyatda istehsalın reallaşdırdığı vahidlərdən biri olan olan iş yerləri təqdim etdikləri məşğulluq imkanları və işçilərə ödədikləri ödənişlər ilə təmin etdiyi mal və xidmətlər dolayısı ilə iş gücünün rifahını yüksəldirlər. İş yerləri həm iş həyatındakı işgücünə günlük yaşamını davam etdirmək üçün ödəniş gəlirini təmin edən, həm də bir paket halında ödənişlərinə əlavə sosial vəsaitlər və peşə vəsaitlərini əlavə edərlər. Bir işçinin bir iş verən olan cəmi xərci, yalnızca işçinin cibinə girən dəqiq ödəniş deyildir. Ödənişlə yanında, vergilər, mükafatlar, sosial yardımlar və dövlətin sosial öhdəliklərinin bir qismini müəsissələrə təhvil verməsi nəticəsində yaranan xərclər və s.də əsas məsələdir. Misal üçün: İngiltərədə dövlət xəstəlikdə ödəmələrin öhdəliyini işəgtürənlərə təhvil vermişdir.

İşyerləri, xəstəlik, iş qəzası, peşə xəstəlikləri, işsizlik və b. bu kimi bəzi qismini, ya da hamısını öz üzərinə götürməkdə bu şəkildə məşğul olmuş fərdlərin rifaha nail olunmasındakı öhdəliyi də işəgötürənlərin üzərinə qoyulmuşdur. İnkişaf etmiş ölkələrdə rifah dövlətlərinin bir çoxunda sosial müdafiə əhatəsinə alınma, yalnızca o ölkənin vətəndaşı olma, ya da o ölkədə iqamət etməsi ilə bağlı ikən digər, bir çox ölkədə isə məşğulluğun qovuşdurulmasında böyük rolu öhdəsinə götürmüşdür və bazarlarda məşğulluq edilmə şərtinə bağlı edilmişdir. Formal sektorda qanuni bir şəkildə məşğulluq imkan tapan və ödənişindən müxtəlif sosial müdafiə vəsaitləri kəsilən fərdlər, dövlət sosial müdafiə qurumlarının öhdəliyi altına alınmaqdadır. Ölkəmizdə də fərdlərin sosial müdafiə əhatəsinə alınmaları, ancaq məşğuluğun yaranması ilə mümkün olmaqdadır. Müəsisələrin sosial müdafiəni təmin etməkdə başqa öhdəlikləri də vardır. Misal üçün: ABŞ-da işəgötürənlər, işçilərinə uşaqlarının təhsili, mənzil, boşanma və b. məqsədlərdə ödəmələr verməkdədir. Yenə uşaq baxımı, içki və narkotik asılılığının qarşısının alınması kimi məqsədlərə sahib olan "İşçilərə yardım proqramları"nı maliyyələşdirməkdədir (8; 9).

Ancaq müəsissələrinin sosial rolları ilə bağlı olaraq demək lazımdır ki,

onların sahib olduğu bu öhdəliklərin səviyyəsi dövlətin bu mövzuda tutduğu mövqe və sahib olduğu anlayışla doğrudan əlaqəlidir. Daha açıq ifadə ilə desək əslində bu səviyyə dövlətin məşğulluğu qanunlarla ifadə edilməsini zəruri etmişdir. Misal üçün: sosial müdafiə qurumlarına ödənən ödəmələr nə qədər olacağı qanunlarla tənzimlənmişdir. Bəzi ölkələrdə sağlıq sığortası və yaşlılıq sığortası özəlləşdirilmiş və bu mövzudakı öhdəliyi işəgötürənlərə təhvil verilmişdir. Bir çox fərdlərə görə, günümüzdə də müəsissələrin bu şəkildə funksiyalarının artaraq davam etməsi gözlənilməkdədir, çünki qloballaşma və neo-liberal siyasətlərin qəbulu ilə birlikdə dövlət üzərindəki sosial öhdəlikləri müəsissələrə təhvil verməsi və beləcə də xərclərin azaltma yollarını axtarmaqdadır. Özəlliklə sosial müdafiə xərclərini azaltma arayışları müəsissələri həqiqətən də maraqlandırır. Dolayısı ilə büdcənin məhdudlaşdırılması və daha kiçik dövlət müəsissəsinin seçildiyi belə bir mühitdə sosial rifahı təmin etməyə əks mənfəətləri işəgötürənlərin təmin etməni tənzimləyən proqramlar dövlət tərəfindən üstünlük verilə bilməkdədir. Əslində bu vəziyyətdən işəgötürənlərin və bazarın da rahatsız olduğu görülməkdədir, çünki bu tənzimedici tədbirlər müəsissələrin rəqabət gücünə və maliyyə strategiyasına maneçilik törədən vasitələr olaraq görülməkdədir. Olduqca ironik bir vəziyyətdir ki, müəssiələrin ödəniş-xarici maliyyəsi, özəlliklə işçilərə verilən mənfəətləri azalda bilmə mövzusunda böyük təşviş içindəykən, dövlət özəl sektordan yəni işəgötürənlərdən ən qısa zamanda bu yükü öz öhdəsinə götürməsini gözləməkdədir. Digər bir yandan açıq bir şəkildə görülməkdədir ki, hər nə qədər dövlətlər sosial öhdəliklərini müəsissələr və bazarla bölüşməzsə qloballaşma sadəcə sosial rifahının kiçidilməsini deyil, müəssisələrin təmin etdiyi rifahın cəzalandırılmasına gətirəcəkdir. Həddən artıq rəqabətçi bir dünyada müəsissələrin işçi mənfəətlərini sahiblənməsinin istənilməsi rəqabət ölkəsinə maneçilik törədəcək bir ölçüdə qorunma mənasına gəlməkdədir.

## Nəticə

Yuxarıda da qeyd edildiyi kimi, son dövrlərdə gündəmə gələn yeni yanaşmada müxtəlif növ rifah ya da rifah çoxluğu üzərində yeni sosial rifah xidmətlərinin təqdim olunmasında yetərsiz qalan mərkəzi və yerli idarəetmə yanında sivil sektorun(ailə, qonşuluq, dostluq), özəl sektorun(bazar və müəsissələr), könüllü sektorun(fond və dərnək kimi gəlir güdməyən quruluşlar) birlikdə vəzifə götürməsi üzərində dayanmaq lazımdır, çünki insanlığın ilk dövrlərindən etibarən zaman-zaman dəyişsə də, bu qurumlar vacib funksiyaları öhdəsinə götürmüş və götürməkdə də davam edəcəyi görünməkdədir. Rifah çoxluğunun nəticə olaraq bu şəkildə qiymətləndirilməsiməqsədə uyğun olacaqdır. Ümumiyyətlə tarixə nəzər salsaq, dövlət, bazar, cəmiyyət və ailə sosial rifahın təmin olunmasında daim çiyin-çiyinə olmuşdurlar. Bu əlaqələrin günümüzdə də yenidən tənzimlənməsi dövlətin bu xidmətlərdən çəkilməsi mənasına gələ bilməz. Bunu daha fərqli anlamaq da mümkündür. Yəni bu çoxluğu rifah iqtisadiyyatının yenidən qurulması çərçivəsində anlamaq gərəkdir. Ancaq bunu da

unutmamaq lazımdır ki, çox geniş əhatəli və daimi ərz edilməsi gərəkən bu xidmətlərin liberal görüşü müdafiə edilənlər tərəfindən müdafiə edilməsi, tamamilə bazara və digər qurumlara verilməsi, bir çox ölkədə dövlət gücünün belə bir xidmətlərin təqdim olunmasında yetərsiz qaldığı düşünüləcəksə, uyğun bir çarə olmaya bilər. Ən uyğun çarə, dövlətin bu qurumlarla ortaq hərəkət etməsi olacaqdır. Digər yandan, hər nə qədər digər iştirakçılara rast gəlinsə də bunların dövlətin alternativi olmayacağı səbəbilə, dövlətin (mərkəzi və yerli idarəetmə) yenə baş iştirakçı olaraq qalacağı bilinməlidir. Fövqaldə bir böyüklüyə sahib olan dövlətin bu baxımından yerini alacaq bir qurum hələ ortada yoxdur.

**Sosial rifahı təmin edən qurumlar və onların funksiyalarını qrafik şəkildə göstərsək:**

| Sosial siyasət təşkilatları | Növləri | Başlıca funksiyaları | Sosial rifah funksiyaları |
|---|---|---|---|
| Sivil sktor | Ailə, qohum, dost, qonşu | Artma, sosiallaşma, qoruma, mənəvi dəstək, dostluq | Asılı ailə üzvlərinin baxımı, ailə içi maliyyə dəstəyi |
| Din | Dini qurumlar | Ruhi inkişaf | Asılı olanlara rifah, sağlıq, təhsil, sosial xidmətləri təmin etmək və məsləhət xidmətləri |
| Könüllü sektor | Könüllü quruluşlar, qruplar | Qarşılıqlı yardım, insan sevgisi, yardımsevərlik | Özü-özünə yardım, könüllülük cəmiyyətə yönəlik sosial xidmətlər |
| İdarə sektoru (mərkəzi və yerli idarəetmə) | Mərkəzi və yerli idarəetmə | İctimai məqsədlərlə mənbələrin istiqamətləndirilməsi və dağıdılması | Yoxsulluğun qarşısının alınması, iqtisadi müdafiə, sağlıq, təhsil və mənzil xidmətləri |
| Özəl sektor bazar və işyerləri | İstehsal edənlər: müəsissələr və istehlakçılar, iş təşkilatları | Mal və xidmətlərin dəyişməsi məşğulluq | Mal və xidmətlərin ticari sosial rifah ödəmələr |

## ƏDƏBİYYAT


1. “Devlet inşası: 21. Yüzyılda Devlet Yöntemi ve dünya düzeni” İstanbul: Remzi Kitabevi, 2005.
2. “Küreselleşme Sürecinde Refah devleti”. İstanbul: İTO Yayınları, 2012.
3. Pierson, Christopher “Modern Devlet”. İstanbul: Çiviyazıları Yayınları, 2004.
4. “Market and State in Times of Globalsation” European Journal of Law and Economics, 2005, 145-150 s.
5. “Küreselleşme Sürecinde Sosyal Politika”. İstanbul: Alfa Yayınları, 2012.
6. “Yoksulluğun Küreselleşmesi: İMF ve Dünya Bankası Feformlarının İçyüzü”. İstanbul: Çiviyazıları Yayınları, 2011.
7. “Kriz ve Geleneksel Refah Rejimi”. Buğra Ayşe Boğaziçi Üniversitesi, VI Araştırma Zirvesi. İstanbul, 19-20 Nisan, 2001.
8. http://www. Treasury.gov.tr/sosyal refah devleti.pdf., 2013.
9. http://www.bianet.org/diger/tartışma 1916.htm 06.04.2013, s.19.
10. Michael Stolleis: Geschichte des Sozialrechts in Deutschland. Stuttgart, 2003.
11. Hans Günter Hockerts: Der deutsche Sozialstaat. Entfaltung und Gefährdungseit 1945. Vandenhoeck&Ruprecht, Göttingen, 2011.

**РАЗЛИЧНЫЕ СРЕДСТВА ОБЕСПЕЧЕНИЯ СОЦИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ**

**А.Н.ИБРАГИМОВА**

**РЕЗЮМЕ**

В этой статье говорится о появлении, в последней четверти 20-го столетия в результате глобализации и либерализации, нового понятия - обеспечение социальной защиты и организации социального обеспечения. Ассимилированная в результате новой политики представил новую концепцию и в полтора раза больше, чем сто лет в, который начал изменять характер самого государства в области смешанной структуры социальной политики и социальной защиты.

**Ключевые слова:** глобализация, социальное обеспечение, различные средства обеспечения социального благосостояния

**VARIOUS MEANS OF PROVIDING SOCIAL WELFARE**

**A.N.IBRAHIMOVA**

**SUMMARY**

The article deals with the emergence of new concepts - social protection and social security in the last quarter of the 20th century as a result of globalization and liberalization.

**Key words**: globalization, social security, various means of providing social welfare